COP29 Baku Azerbaijan



*Yaşıl dünya naminə həmrəy olaq!*

***COP** - İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası insanın iqlim mühitinə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. Tərəflərin Konfransı İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali qərarverici orqandır. Bu Konvensiyaya üzv olan 190-dan çox ölkə var.*

*Ötən il dekabrın 11-də Dubayda COP28-in plenar iclasında COP29-un bu il Azərbaycanda keçirilməsi haqqında qərar qəbul olunub.*

# Pre-COP29: İqlim dəyişmələri ilə mübarizədə maliyyəni müəyyən etmək vacibdir

**Bakıda keçirilən Pre-COP29 konfransının ikinci günü iqlim və inkişafa dair nazirlər səviyyəsində davam edib.**

İclas Böyük Britaniya, Vanuatu və Azərbaycanın birgə təşkilatçılığı ilə keçirilir. Qeyd edək ki, Pre-COP29 konfransı "Ambisiyanı artırmaq və iqlim fəaliyyətinə təkan vermək" mövzusuna həsr olunub.

İclasda COP29-un prezidenti Muxtar Babayev deyib ki, iqlim dəyişmələrinə uyğunlaşma üzrə fəaliyyətlər artıq bu gün həyatları xilas edir. Biz iqlim maliyyəsinin əlçatanlığını əhəmiyyətli dərəcədə artırmalıyıq. "Yaşıl İqlim Fonduna və iqlim maliyyəsinə töhfələrin artırılmasını tələb etməyə davam edirik, lakin biz qəbul edirik ki, iqlim maliyyəsi üçün bütün maliyyə vəsaitləri dövlət sektorundan gələ bilməz. İqlim maliyyələşdirilməsinin yalnız 2 faizi hazırda özəl sektordan gəlir. Çoxtərəfli inkişaf bankları və beynəlxalq maliyyə institutları özəl sektor investisiyalarının cəlb edilməsində rol oynamalıdırlar. Biz iqlim maliyyələşdirməsinə miqyası, effektivliyi və asan çıxışını artırmaq üçün bu təşkilatlarla işləyirik".

COP-un prezidenti bildirib ki, qlobal istiləşməni 1.5 dərəcəyə qədər məhdudlaşdırmağı bacarsaq belə, bütün dünyada iqlim dəyişmələrinin ciddi təsirləri ilə məşğul olmalıyıq. "Uyğunlaşmanın maliyyələşdirilməsi və həyata keçirilməsində hələ də aydın boşluqlar mövcuddur. Karib və Sakit Okean hövzəsindən Afrikaya qədər biz uyğunlaşmada geri qalırıq".

İrlandiyanın ətraf mühit, iqlim danışıqları və nəqliyyat naziri Eamon Ryan panel iclası zamanı deyib ki, yoxsulluqla mübarizə, əhaliyə xidmətlər və infrastrukturun təmin edilməsi zərurəti iqlim dəyişmələri şəraitində aradan qalxmır. O bəyan edib ki, İrlandiyanın planı iqlimin təsirlərinə ən həssas olanların ehtiyaclarını dəstəkləyir.

Nazirlər Konfransına videokonfrans vasitəsilə qoşulan Yaşıl İqlim Fondunun İnvestisiyalar üzrə baş direktoru Henri Qonzalez bildirib ki, iqlim dəyişmələrinin qarşısının alınmasına yönəldiləcək bütün maliyyə vəsaitlərinin şəffaflığı və hesabatlılığı təmin edilməlidir. "COP29-un keçirilməsi təmsil etdiyim fondun da marağındadır. Biz, xüsusilə də maliyyə alətlərinin ictimailəşdirilməsi, eləcə də şəffaflıq siyasətinə üstünlük veririk. Bizim fondun məqsədi növbəti ildən bu sahəyə ayrılacaq maliyyənin həcminin artırılmasına nail olmaqdan ibarətdir".

Nazirlər Konfransında ABŞ Prezidentinin Beynəlxalq İqlim Siyasəti üzrə baş müşaviri Con Podesta deyib ki, dünənki plenar iclasda qeyd etdiyi kimi, 2024-cü il iqlim böhranı ili kimi müəyyən edilib.

İqlim böhranı dünyanı narahat edən əsas məsələlərdən biridir. "Biz burada danışarkən "Milton" qasırğası ABŞ-da zərərlər törətdi. Tullantıları azaltmaq üçün təcili addımlar atmaqla yanaşı, iqlim fəlakətlərinə reaksiyamızı da gücləndirməliyik və gələcək ekstremal hava şəraitinə qarşı işlər görməliyik. Az inkişaf etməkdə olan ölkələrə və inkişaf etməkdə olan kiçik ada dövlətlərinə bu böhranı idarə etmək və uyğunlaşdırmaq üçün dəstək olmalıyıq: "Maliyyə dəstəyi iqlim fəaliyyətində ən kritik məsələdir".

Vanuatunun iqlim dəyişmələri naziri Con Salong qeyd edib ki, Pre-COP29-da aparılan müzakirələr inkişaf etməkdə olan kiçik ada dövlətləri və ən az inkişaf etmiş dövlətlər üçün uyğunlaşmanın sürətləndirilməsi baxımından mühüm bir addımdır. Bizim seçim şansımız yoxdur və həyatda qalmağımız üçün uyğunlaşma zəruridir.




Onun sözlərinə əsasən, Vanuatu təhlükə altındadır. Bu təhlükə raketlərə və ya hərbi təcavüzə görə deyil, bəşəriyyəti və planeti öldürən qalıq yanacaqlardan ayrıla bilməməsi səbəbindən baş verir.

Dünya Bankının İqlim Dəyişikliyi Qrupunun qlobal direktoru Cennifer Sara vurğulayıb ki, Bakıda keçiriləcək COP29 Sədrliyinin əsas məqsədi bu tədbir çərçivəsində dayanıqlı və etibarlı maliyyə mexanizmlərinin formalaşdırılması üçün iştirakçı tərəflərə müvafiq şəraitin yaradılmasıdır.

Dünya Bankı iqlim dəyişmələri ilə mübarizəyə maliyyənin ayrılmasını mümkün qədər tez həll etməyə çağırır. İqlim dəyişmələri kimi qlobal problemin aradan qaldırılmasının effektivliyini və nəticəliyini təmin etmək üçün COP29-un işində iştirak edən ölkələr arasında maliyyələşmə məsələsində razılıq əldə olunmalıdır. "İqlim maliyyəsi məsələsində vacib olan əsas element bilavasitə hökumətlər arasında razılaşmanın əldə edilməsidir. Bu məsələ həm hökumət və qeyri-hökumət təşkilatları, həm də maliyyə institutlarının birgə fəaliyyəti və onlar arasında konsensusun mövcudluğu nəticəsində mümkün ola bilər. COP29-un Sədrliyinin əsas məqsədi bu tədbir çərçivəsində dayanıqlı və etibarlı maliyyə mexanizmlərinin formalaşdırılması üçün iştirakçı tərəflərə müvafiq şəraitin yaradılmasıdır. Biz iqlim dəyişmələri ilə mübarizə məqsədilə maliyyənin ayrılması məsələsini mümkün qədər tez həll etməliyik. COP29-da qəbul ediləcək qərarlar həm iştirakçı tərəflərin, həm də bütövlükdə planetimizin maraqlarına uyğun olmalıdır".

Almaniyadan olan nümayəndə Cennifer Morqan panel iclası zamanı deyib ki, Almaniya Uyğunlaşma Fondunun ən böyük maliyyəçisidir. "Ümid edirik ki, builki COP-da maliyyəni artıra və başqalarını da bunu etməyə təşviq edə bilərik. Bir qrup inkişaf etmiş ölkə hazırda COP28-də tələb olunduğu kimi uyğunlaşma maliyyəsi üzrə irəliləyiş haqqında hesabat hazırlayır və biz ümid edirik ki, bu, həqiqətən də güclü mübadilə ola bilər".

Marşall Adaları Hökumətinin iqlim dəyişmələri məsələləri üzrə xüsusi nümayəndəsi Tina Stege söyləyib ki, hər bir ölkə COP29 çərçivəsində iqlim maliyyəsinin təminatı üçün səmərəli həll yollarının tapılmasında aktiv iştirak edərək öz strategiyasını açıqlamalıdır.

Burada əsas məsələ ondan ibarətdir ki, COP29-un işində iştirak edəcək tərəflər həmin məsuliyyəti yetərincə dərk edərək qlobal iqlim maliyyəsi sahəsində ortaq nəticə əldə edə bilsinlər. Çünki planetimizin bu sahədə üzləşdiyi problemləri yalnız effektiv maliyyələşmə üsulu ilə dəf etmək olar.

**Aygün İBRAHİMOVA,**
**"Respublika".**